TƏSDİQ EDİRƏM"
Azərbaycan Turizm və Menecment
Universitetinin rektoru _____ İ.İ. Mədətov
"14" sentyabr 2023-cü il

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TURİZM AGENTLİYİ
AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİNİN

ELMİ-TƏDQİQAT STRATEGİYASI

Bakı-2023

Azərbaycan Turizm və Menecment Universiteti haqqında

Azərbaycan Turizm və Menecment Universiteti (ATMU) 22 dekabr 2014-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2006-cı ildən fəaliyyət göstərən Azərbaycan Turizm İnstitutunun (ATİ) bazasında yaradılmışdır. ATMU ölkədə turizm və menecement sahələri üzrə kadr hazırlığını həyata keçirən ali təhsil müəssisəsidir. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2018-ci il 7 iyun tarixli 255 nömrəli qərarı ilə ATMU Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin tabeçiliyində 3 fakültə və 8 kafedra ilə fəaliyyət göstərir. ATMU-da tədris təhsilin bakalavriatura, magistratura və doktorantura pillələri, həmçinin əlavə təhsil proqramı üzrə həyata keçirilir.

Nailiyyətlərimiz

Azərbaycan Turizm və Menecment Universiteti Azərbaycan Respublikasında Ali Təhsil Müəssisələri arasında ilk dəfə beynəlxalq ikili diplom proqramını tətbiq etmişdir. Avstriyanın IMC Krems Tətbiqi Elmlər Universiteti ilə 2007-ci ildə Azərbaycan-Avstriya Turizm Proqramının reallaşdırılması ilə bağlı müqavilənin imzalanması ilə yerli və beynəlxalq turizm təhsilinin incəliklərindən xəbərdar olan mütəxəssislər turizm sektorunun inkişafına töhfə verməkdədirlər. Təhsil aldıqları müddətdə tələbələr təhsillərini 1 semestr ərzində Avstriyada davam etdirməklə beynəlxalq təhsil təcrübəsi əldə etmiş olurlar. Avstriyadan olan mütəxəssislər tərəfindən tədrisin aparıldığı proqramı uğurla bitirmiş tələbələr iki diplom - Azərbaycan Turizm və Menecment Universiteti və IMC Krems Tətbiqi Elmlər Universitetinin diplomlarını əldə edirlər.

20 noyabr 2019-cu il tarixində Azərbaycan Turizm və Menecment Universiteti "Turizm işinin təşkili" ixtisas proqramı üzrə ISO 9001:2015 - Keyfiyyət İdarəetmə Sistemi sertifikatına layiq görülmüşdür. ATMU-nun qeyd olunan sertifikata layiq görülməsi onun effektiv idarəetmə sisteminə malik olması və beynəlxalq standartlara cavab verən təhsil siyasətini həyata keçirməsinin göstəricisidir. 26 yanvar 2023-cü il tarixində Turizm və qonaqpərvərlik fakültəsi İSO 9001:2015 – Keyfiyyət idarəetmə sistemi standartı üzrə təkrar sertfikatlaşmadan keçmiş, yeni sertifikiatı əldə etmişdir.

10 mart 2020-ci il tarixində Azərbaycan Turizm və Menecment Universiteti "Turizm işinin təşkili" ixtisas proqramı üzrə Ümumdünya Turizm Təşkilatının "UNWTO.TedQual" beynəlxalq

keyfiyyət sertifikatına layiq görülmüşdür. Cənubi Qafqaz regionu ali təhsil müəssisələri arasında ilk dəfə olaraq ATMU-nun "UNWTO.TedQual" sertifikasiyası prosesindən uğurla keçməsi Azərbaycanda turizm sahəsində ali təhsilin qlobal rəqabətliliyinin artırılması istiqamətində mühüm nailiyyətdir. "UNWTO.TedQual" Ali Təhsil Müəssisələri Şəbəkəsinə qoşularaq ATMU, akademik heyət üzvlərinin və tələbələrin mübadilə proqramlarında iştirak etmək hüququ əldə etməklə bərabər, həmçinin bilik və təcrübə mübadiləsi fürsətlərindən bəhrələnmək imkanı da qazanıb.

4 sentyabr 2023-cü il tarixində Azərbaycan Turizm və Menecment Universiteti "Turizm və Qonaqpərvərlik" və "Sosial menecment fakültələri" İSO 210001:2018 – Təhsilin idarəedilməsi standartı üzrə sertifikata layiq görülmüşdür.

Missiyamız

ATMU-nu beynəlxalq əmək bazarında rəqabət qabiliyyətli və cəmiyyətin dayanıqlı inkişafına töhfə verəcək mütəxəssislər hazırlayan ali təhsil müəssisəsinə çevirməkdir.

Hədəfimiz

Missiyaya uyğun olaraq fərdlərə öyrənmək, dəyişmək və dəyişdirmək üçün zəruri səriştələri aşılayan təhsil, innovasiya və tədqiqat mərkəzi kimi formalaşmaq, Universitetimizin korporativ mədəniyyəti sosial məsuliyyət, dürüstlük, şəffaflıq, hesabatlılıq, rasionallıq, akademik azadlıq, biliyə maraq və yenilikçilik dəyərləri üzərində qurmaqdır.

Azərbaycan Turizm və Menecment Universitetinin Elmi-Tədqiqat Strategiyası aşağıdakı 5 istiqamətdən (hədəfdən) ibarətdir:

1. Elmi tədqiqatların koordinasiyasını həyata keçirmək;
2. Magistratura və doktorantura təhsil pilləsində tədqiqat mühitinin və kadr hazırlığının təkmilləşdirilməsi;
3. İnnovasiya sahəsində universitetin strategiyasının və inkişaf planının, inkişafın yol xəritəsinin və bu istiqamətli digər sənədlərin hazırlanması;
4. Digər beynəlxalq və yerli ali təhsil və elmi-tədqiqat müəssisələr ilə birgə əməkdaşlıq

əlaqələrinin qurulması;

5. "Web of Science" və "Scopus" elmi platformalarına daxil olan yüksək kvartilli nəşrlərdə çap edilən məqalələrin sayını hər il artırılması istiqamətində fəaliyyət.

Strateji hədəf 1: Elmi tədqiqatların koordinasiyasını həyata keçirmək.

1.1. **Elmi tədqiqatın inkişafına zəmin yaradan mexanizmləri hazırlamaq və elmi tədqiqat işlərinin nəticələrinin tətbiq edilməsi üçün insan potensialının gücləndirilməsini təmin etmək:**

1.1.1. Keyfiyyətli tədqiqat parametrlərini müəyyənləşdirən uyğun təlimatların hazırlanmasınıtəmin etmək;

1.1.2. Keyfiyyətli tədqiqatın təbliğ-təşviq mexanizmlərini təkmilləşdirmək;

1.1.3. Elmi tədqiqat mövzularının yeni strategiyaya uyğunlaşdırılması istiqamətində işlərin aparılması;

1.1.4. Hər il elmi tədqiqat mövzularının nəticələrinin ümumiləşdirilməsi və ümumi təhlillərin aparılması;

1.1.5. Azərbaycan Turizm və Menecment Universitetinin əsas elmi nəşri olan "Turizm və qonaqpərvərlik tədqiqatları" jurnalının şəbəkə elmi platformasına qoşulmasını təmin etmək;

1.1.6. Beynəlxalq miqyaslı yeni elmi-tədqiqat nəticələrini nəşr etmək məqsədilə jurnalın təsis edilməsinə nail olmaq.

1.2. **Tədqiqat keyfiyyətinin artırılmasında şöbənin rolunu gücləndirmək:**

1.2.1. Şöbənin elmi-tədqiqat fəaliyyətində rolunu gücləndirmək üçün daxili normativ sənədlərdə uyğun dəyişikliklər etmək;

1.2.2. İnkişaf planına və tədqiqatçı potensialına uyğun olaraq fəaliyyət planlarınımüəyyən etmək, onları ehtiyaca uyğun olaraq maliyyə resursları ilə dəstəkləmək;

1.2.3. Müvafiq prioritet elm sahələri üzrə elmi kadrların hazırlanması işini təkmilləşdirmək.

Strateji hədəf 2: Magistratura və doktorantura təhsil pilləsində tədqiqat mühitinin və kadr hazırlığının təkmilləşdirilməsi

2.1.1. Magistr mövzularının ümumi koordinasiyasının həyata keçirilməsi;

2.1.2. Magistrant və doktorantları universitetdə aparılan elmi tədqiqat işləri və qrant layihələrinə cəlb etmək;

2.1.3. Doktorantura təhsil pilləsində təhsil alanlara elmi-tədqiqat mövzularının müəyyən edilməsi və Azərbaycan Milli Elmlər Akademiyasının əlaqələndirilməsi Şurasından keçirilməsi;

2.1.4. Yüksək ixtisaslı elmi və elmi-pedaqoji mütəxəssislərin hazırlanması;

2.1.5. Doktorant və dissertantları universitetdə tədris prosesinə cəlb edilməsi;

2.1.6. Elmi tədqiqat metodlarının və üsullarının daha dərindən öyrədilməsi;

2.1.7. Tədqiqat mövzularının araşdırılması və ümumi təhlillərin aparılması;

2.1.8. Elmi tədqiqat sahəsinə və ixtisasa aid sahələr üzrə müasir tələblər səviyyəsində ixtisas fənlərinin tədrisinin mənimsənilməsi;

2.1.9. Akademik heyət arasında ixtisas istiqamətlərinə uyğun olaraq müvafiq elmi tədqiqatların aparılmasını təşviq etmək;

2.1.10. Elmi-tədqiqat nəticələrinin kommersiyalaşdırılması prosesinin təşkili.

Strateji hədəf 3. İnnovasiya sahəsində universitetin strategiyasının və inkişaf planının, inkişafın yol xəritəsinin və bu istiqamətli digər sənədlərin hazırlanması

3.1.1. Universitetin innovativ inkişafı, yenilikçi tipli tədqiqat mərkəzlərinin yaradılması və fəaliyyətlərin şaxələndirilməsi proqramlarını dəstəkləmək və maliyyələşdirmək üçün müraciətlərin və tədbirlərin dəstəklənməsi;

3.1.2. Elektron və məsafədən təhsil proseslərinin öyrənilməsi sisteminin inkişafı; həyata keçirilməsi və müşayət edilməsi təkliflərinin hazırlanması;

3.1.3. Tələbələrin elmi yaradıcılıq fəaliyyətinin müasir tələblər səviyyəsində təşkili, tələbələrin innovativ fəaliyyətə istiqamətləndirilməsi üçün tədbirlərin hazırlanması və həyata keçirilməsi;

3.1.4. İnnovativ təhsil prosesinin həyata keçirilməsi məqsədilə kadrların inkişaf etdirilməsi və dəstəklənməsi.

Strateji hədəf 4: Digər müəssisələr ilə birgə əməkdaşlıq əlaqələrinin qurulması

4.1. **Elmi tədqiqatın inkişafı üçün beynəlxalq əməkdaşlıq şəbəkəsini genişləndirmək:**

4.1.1. Birgə tədqiqatların aparılması üçün beynəlxalq əməkdaşlıqların genişləndirilməsini təmin etmək;

4.1.2. Doktorantların və tədqiqatçıların beynəlxalq qrant layihələrində, mübadilə proqramlarında iştirakını təbliğ-təşviq etmək;

4.1.3. Beynəlxalq reytinqlərdə dünyanın ən yaxşı universitetləri sırasında yer alınması istiqamətli fəaliyyəti təmin etmək, önəmli olan göstəricilər üzrə mövqeyi möhkəmlətmək üçün uyğun resurslarla (maliyyə, insan və s.) təmin etmək;

4.1.4. Ölkədə prioritet sahələrdə fəaliyyət göstərən turizm müəssisələri ilə əlaqələri genişləndirmək.

Strateji hədəf 5: "Web of Science" və "Scopus" elmi platformalarına daxil olan yüksək kvartilli nəşrlərdə çap edilən məqalələrin sayını hər il artırması istiqamətində fəaliyyət.

5.1. **Beynəlxalq elmmetrik bazalarda dərc edilən elmi nəşrlərin müəlliflərinin əməyinin stimullaşdırılması ilə bağlı işlərin görülməsi:**

5.1.1. Aparılan və planlaşdırılmış tədqiqat sahələri üzrə şirkətlərlə anlaşmanın sayını artırmaq;

5.1.2. Universitetdə elmi fəaliyyətlə məşğul olan professor-müəllim heyətinin beynəlxalq bazalarda nəşr olunan məqalələrin illik statistikasının müəyyən edilməsi istiqamətində işlərin aparılması;

5.1.3. Tədqiqatçıların beynəlxalq elmi jurnallara əlçatalığının təmin edilməsi üçün beynəlxalq elektron resurslara çıxışları genişləndirmək.

ATMU-nun Elmi Şurasının
2023-cü il 14 sentyabr
1№ protokolu ilə təsdiq edilmişdir